| | | |
|---|---|---|
| **Ümumi məlumat** | Fənnin adı, kodu və kreditlərin sayı | EDU 101 Təhsilə giriş, 6 AKTS |
| | Departament | Təhsil |
| | Proqram (bakalavr, magistr) | Bakalavr |
| | Tədris semestri | 2025/26-cı tədris ilinin payız semestri |
| | Fənni tədris edən müəllim (lər) | Günay Qasımova |
| | E-mail: | gunay.gasimova@khazar.org |
| | Telefon: | +994 12 421 10 93 (+261) |
| | Mühazirə otağı/Cədvəl | Nərimanov korpusu, II günlər 12:20; 13:50 401-ci otaq |
| | Məsləhət saatları | Nərimanov korpusu, II günlər, 11:30-12:15 |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat:**<br>1.Azərbaycan Respublikasının Təhsil Qanunu (2009)<br>2. H.İsaxanlı – Keçid dövrü iqtisadiyyatında təhsil sistemi haqqında (2006)<br>3.A.Süleymanova – Təhsilin əsasları (2014)<br>3. Gültekin Mehmet. Təhsil elminə giriş. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2018.<br>4. Təhsil lüğəti (Bakı, 2011)<br>5.Beasley & Haulmark – Introduction to Education (2021)<br>6. Tony Bates – Teaching in a Digital Age (2019)<br>7.Schleicher, A. Preparing Teachers and Developing School Leaders (OECD, 2012)<br><br>-Alternativ istifadə olunacaq internet resursları:<br>www.khazar.org (e-catalog)<br>www.arti.edu.az<br>www.edu.gov.az<br>www.tkt.edu.az<br>www.unesco.org<br>www.unicef.org<br>www.oecd.org<br><br>Qeyd: Ingilis dilində olan ədəbiyyatdan, saytlardan əldən edilən fəsillər, məqalələr Azərbaycan dilinə tərcümə olunaraq sadələşdirilir və tələbələrə təqdim olunur. Hər dərs üçün fənn müəllimi tərəfindən təqdimat hazırlanır. Dərsdən sonra bütün təqdimatlar Teams platformasında yaradılmış qrupda paylaşılır. Həmin qrup e-dərsliklərə tələbələrin | |

| | | | |
|---|---|---|---|
| | əlçatanlığını təmin etmək məqsədilə təşkil edilir. | | |
| **Kursun təsviri** | Kurs təhsilalanları təhsilin formaları, pillələri, ümumi məzmun və məqsədləri barədə məlumatlandırır. Semestr ərzində müasir təhsil sistemlərində mövcud olan əsas məsələlər, dəyişən dünyada təhsil sistemi, 21-ci əsrdə rəqəmsal təhsil sahəsində müəllimlərin üzləşdiyi çətinliklər barədə məsələlər müzakirə olunur. Kurs zamanı tələbələr ümumitəhsil məktəblərində şagird nailiyyətlərinin qiymətləndirilməsi, məktəb idarəetməsi və müəllimin rolu, məktəb-valideyn əməkdaşlığının vacibliyi, təhsildə bərabərliyin, inkluzivliyin vacibliyi, təhsilin cəmiyyətin, insanların rifahında rolu haqqında baza biliklər əldə edir. | | |
| **Kursun məqsədləri** | Gələcəyin müəllimində təhsilin məzmunu, məqsədləri və cəmiyyətlə qarşılıqlı əlaqəsi barədə baza biliklər formalaşdırmaq və təhsil tarixinin inkişaf mərhələləri, Azərbaycan təhsilində keçid dövrü, rəqəmsal təhsil sistemində müəllimin rolu, öhdəlikləri haqqında ümumi təsəvvür yaratmaqdır. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Kursu uğurla başa vuran tələbələr:**<br><br>FTN1. Təhsilin məqsədini, məzmununu və cəmiyyətlə qarşılıqlı əlaqəsini izah edə biləcəklər.<br><br>FTN2. Təhsilin əsas funksiyalarını və pillələrini (məktəbəqədər, orta, ali təhsil) fərqləndirə biləcəklər.<br><br>FTN3. Azərbaycan təhsil tarixinin əsas mərhələlərini və keçid dövründəki xüsusiyyətləri şərh edəcəklər.<br><br>FTN4.Müasir dövrdə rəqəmsal təhsilin imkanlarını və problemlərini qiymətləndirə biləcəklər.<br><br>FTN5. Məktəb idarəetməsində müəllimin rolu və maraqlı tərəflərin (müəllim, valideyn, şagird) əməkdaşlığını izah edəcəklər.<br><br>FTN6. Müəllimlik peşəsinin mahiyyətini və müəllim hazırlığının təhsil siyasətində rolunu izah edəcəklər.<br><br>FTN7. Təhsil proqramlarının quruluşunu, məqsədini və qiymətləndirmə mexanizmlərini (formativ, summativ) tətbiq nümunələri ilə göstərə biləcəklər. | | |
| **Tədris metodları** | Qrup müzakirələri | | |
| | Refleksiyalar | Menti proqramı (multimediadan istifadə olunacaq) | |
| | Layihə əsaslı öyrənmə | Seçilmiş mövzu üzrə araşdırma əsaslı fərdi təqdimatlar | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Qrup işləri** | Semestr ərzində | 5 |

| | | | |
|---|---|---|---|
| | **Aktivlik (davamiyyət)** | Semestr ərzində | 5 |
| | **Fərdi təqdimat** | Dekabr | 10 |
| | **Quiz (2)** | Oktyabr - dekabr | 10 |
| | **Aralıq imtahanı** | Noyabr | 30 |
| | **Final imtahanı** | Yanvar | 40 |
| | **Yekun** | | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Fəallıq (davamiyyət)**<br>-Müəllim davamiyyət və aktivliyi diqqətlə izləyir və qeyd edir.<br>-Xüsusi səbəb olmadıqda, tələbənin hər dərsdə iştirak etməsi vacibdir.<br>-Dərsə gəlməyən tələbənin və ya dərs prosesində müzakirələrdə iştirak etməkdən imtina edən tələbənin davamiyyət balı azalır.<br>İştirak etmədiyi dərsin qeydlərini və mövzularını digər tələbələrdən əldə etmək tələbənin öz məsuliyyətidir. Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs (8 qayıb) buraxan tələbələr imtahana buraxılmır. (3 qayıb = 1bal).<br><br>**Quiz (Test) (2)**<br>Semestr müddətində, aralıq və yekun imtahanlardan iki həftə əvvəl quizlər təşkil edilir. Bu qiymətləndirmə forması tələbələrin bilik və bacarıqlarının mütəmadi olaraq formativ şəkildə yoxlanılmasına xidmət edir. Quizlərin əsas məqsədi tələbələrin tədris materiallarını sistemli şəkildə hansı səviyyədə mənimsədiyini və onların hazırlıq səviyyəsini izləməkdir. Testlər əsasən 8 qapalı sualdan və 1 açıq sualdan ibarət olur.<br><br>**Qrup işləri**<br>Tələbələrin bütün planlaşdırılmış qrup müzakirələrində fəal iştirak etməsi məqsədəuyğundur. Onların iştirakı diqqətlə izlənilir və dəyərləndirilir. Bu cür qrup müzakirələri təhsilalanda komandada işləmək, yoldaşlarından rəy almaq, rəy vermək, müxtəlif mövzular üzrə refleksiya etmək bacarıqlarını inkişaf etdirməyi hədəfləyir.<br><br>**Təqdimatlar**<br>Tələbələr seçilmiş bir mövzu üzrə araşdırma aparmalı və təqdimat hazırlamalıdır. Mövzu semestr müddətində keçirilmiş və ya təhsil sahəsi ilə əlaqəli mövzu ola bilər. Semestrin sonunda, final imtahanından əvvəl, tələbələr 15 dəqiqədən artıq olmamaq şərtilə mövzularını auditoriyaya təqdim edəcəklər. Bu tapşırıq tələbələrin tənqidi düşünmə, təqdimat və ilkin elmi araşdırma bacarıqlarını inkişaf etdirməyi hədəfləyir. Bütün təqdimatların ən azı 2 iş günü öncədən fənn müəlliminin e-poçtuna göndərilməsi lazımdır. Təqdimatdan sonra hər bir tələbə fənn müəllimi və tələbə yoldaşlarının suallarını dinləyir, cavablandırır və rəylərini eşidir. Daha sonra təqdimatını verilən rəylərə əsasən yeniləyir (ehtiyac varsa) və fənn müəlliminə göndərir.<br><br>**Təqdimatın qiymətləndirilməsi** | | |

**bal**
**9-10** Mövzu tam şəkildə işlənib, təqdimat məzmun, struktur və çıxış baxımından mükəmməldir.
**7-8** Kiçik qüsurlar olsa da, ümumi keyfiyyət yüksəkdir.
**5-6** Mövzu əsasən yaxşı işlənib, lakin məzmunda bəzi hissələrdə çatışmazlıqlar var.
**3-4** Təqdimat əsas tələblərə cavab verir, lakin mövzu üstüörtülü işlənib, təqdimat qeyri-sistemlidir.
**1-2** Minimum tələbləri qarşılayır, məzmunda ciddi boşluqlar mövcuddur.
**0** Tapşırıq işlənməyib.

**İmtahanlar**
Aralıq və final imtahan sualları semestr ərzində keçirilən, Teams platformasında yüklənən e-dərsliklərdən götürülmüş, tərcümə olunmuş və auditoriyada müzakirə edilmiş mövzuları, hər dərs üçün fənn müəllimi tərəfindən hazırlanan vizual təqdimatları əhatə edir. Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.

**Tələbənin kursu başa vurması**
60% və daha artıq bal toplamış tələbə kursu bitirmiş hesab olunur. Final imtahan nəticəsi 100 baldan 57, 58 və ya 59 bal taplayan tələbələr dekanlığın icazəsi ilə tamamlama imtahanına müraciət edə bilərlər. Əks halda tələbə bu kursu yenidən keçməlidir.

**Plagiat və akademik dürüstlük**
Təqdimat tələbələrin orijinal işi olmalıdır. Onlayn materiallardan, kitablardan və ya digər tələbələrin işlərindən düzgün istinad etmədən köçürmək plagiat hesab olunur. Əgər plagiat aşkarlanarsa, tələbənin təqdimatı sıfır balla dəyərləndirilir.

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | 16.09.2025 | Salamlaşma, tanışlıq<br>Kursun məqsədinin izahı.<br>Tələbələrin kursdan gözləntiləri.<br>Sillabusun təqdim edilməsi.<br>Fənn proqramının məzmunu və məqsədi haqqında ümumi məlumat. | -*Introduction to Education*, fəsil 2: “What is the Purpose of Education?” (təhsilin sosial mahiyyəti) (pp. 1-18)<br><br>-Müəllim tərəfindən tərcümə olunmuş, hazırlanmış təqdimat |
| 2. | 23.09.2025 | Təhsilin ümumi məqsədləri və funksiyaları.<br>Təhsil pillələri (Məktəbəqədər, orta və ali təhsil). | -M. Gültəkin (2018) - *Təhsil elminə giriş* (Fəsil 2)<br>-Müəllim tərəfindən tərcümə olunmuş, hazırlanmış təqdimat |

| | | | |
|---|---|---|---|
| 3. | 30.09.2025 | Təhsilin yaranması və inkişaf tarixinə ümumi baxış.<br>Azərbaycan təhsil tarixinə ümumi baxış.<br>Keçid dövründə Azərbaycan təhsil sistemi.<br>Boloniya deklarasiyası. | -H. İsaxanlı (2006) – *Keçid dövrü iqtisadiyyatında təhsil sistemi haqqında*, I hissə.<br><br>-Mehmet Gültəkin (2018) - Fəsil 3: Müasir dövrdə təhsil sistemləri (Boloniya prosesi daxil) |
| 4. | 07.10.2025 | Azərbaycan təhsil sisteminin hüquqi əsasları, təhsil siyasəti və prinsipləri nədir?<br><br>Təhsillə bağlı qanunvericilik sənədləri ilə ilkin tanışlıq | -Azərbaycan Respublikasının Təhsil Qanunu (2009) Maddələrə nəzər salma.<br><br>-A. Süleymanova (2014) -Fəsil 2: Təhsil siyasəti və qanunvericilik əsasları |
| 5. | 14.10.2025 | Qlobalizasiya və təhsil.<br><br>Ted talks video təqdimatının müzakirəsi. | -Mehmet Gültəkin (2018) - Fəsil 5: Təhsil və qloballaşma.<br><br>-Təhsil lüğəti (2011) (s. 220–221).<br><br>The Future of Education \| Yılmaz Köylü \| TEDxEdUHK |
| 6. | 21.10.2025 | Davamlı inkişaf üçün keyfiyyətli təhsil, SDG-4 nədir? | Təhsil lüğəti (2011) – “Davamlı inkişaf üçün təhsil” maddəsi<br>Sustainable Development Goal 4: Keyfiyyətli təhsil \| BMT Azərbaycanda |
| 7. | 28.10.2025 | Təhsil və gender bərabərliyi.<br>Təhsildə bərabərlik.<br>Təhsildə inkluzivlik. | Beasley & Haulmark (2021) - Chapter 6: “Equality or Equity”.<br><br>-Azərbaycan Respublikasının Təhsil Qanunu (2009) (bərabər imkanlar, pp. 14–15).<br><br>-Schleicher (2012), OECD Report - *Equity and Quality in Education* (pp. 29–40) |
| **Aralıq imtahanı** | | | |

| | | | |
|---|---|---|---|
| 8. | 04.11.2025 | Bloom taksonomiyasının mahiyyəti və tətbiqi | Afət Süleymanovanın "Təhsilin əsasları" (2014) Qiymətləndirmə (Fəsil 8) -Müəllim tərəfindən tərcümə olunmuş, hazırlanmış təqdimat |
| 9. | 11.11.2025 | Texnologiyanın təhsildə rolu. Üstünlükləri və mövcud çətinlikləri | Tony Bates (2019) Teaching in a Digital Age (Chapter 10) |
| 10. | 18.11.2025 | Məktəb idarəetməsi necə olur? Təhsilalan, təhsilverən və valideyn kimi maraqlı tərəflər və onların əməkdaşlığı. | A. Süleymanova (2014) Fəsil 6: Təhsilin idarə olunması.<br><br>Schleicher (2012) "Developing Effective School Leaders" (pp. 65–75) |
| 11. | 25.11.2025 | Müəllimlik peşəsi. Azərbaycan təhsil sistemində müəllim hazırlığı siyasəti | Schleicher (2012) "Preparing Teachers for 21st Century" (pp. 20–30)<br>www.edu.gov.az |
| 12. | 02.12.2025 | Təhsil proqramları strukturu və məqsədi | A. Süleymanova (2014) **-** (Fəsil 7)- Təhsil proqramları və kurikulum.<br><br>Təhsil lüğəti (2011) "Kurikulum" maddəsi.<br><br>Tony Bates (2019) **-** Chapter 6: *Models for Designing Teaching and Learning* |
| 13. | 09.12.2025 | Təhsildə qiymətləndirmə barədə ümumi anlayış. Qiymətləndirmə mexanizimləri (diaqnostik, formativ, summativ qiymətləndirmə) | A. Süleymanova (2014) (Fəsil 8) Qiymətləndirmə<br><br>Təhsil lüğəti (2011) **-**"Formativ qiymətləndirmə" və "Summativ qiymətləndirmə" maddələri (s. 200–202). |
| 14. | 16.12.2025 | Azərbaycan Respublikasında təhsildə islahatlar və cəmiyyətə təsiri, mövcud çətinliklər, son illərdə əldə edilən nailiyyətlər | www.edu.gov.az<br>Müəllim tərəfindən hazırlanmış təqdimat |
| 15. | 23.12.2025 | Keçirilən mövzuların yekun müzakirəsi | Müəllim tərəfindən hazırlanmış təqdimat |
| **Final imtahanı** | | | |